Azərbaycan Respublikası
Prezidentinin 2017-ci il 2 iyun
tarixli Sərəncamı ilə təsdiq
edilmişdir

“Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair

# Tədbirlər Planı

| Sıra №-si | İndikatorlar | Mövcud vəziyyət (2016-cı il hesabatla-rı üzrə ) | Metodologiya | Görüləcək tədbirlər | Əhatə edildiyi mövcud normativ hüquqi aktlar, sənədlər/ Qanunvericilikdə tələb olunan müvafiq dəyişiklik | İcra müddəti | İcra orqanları | Gözlənilən nəticələr |
|---|---|---|---|---|---|---|---|---|
| **1. Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı** | | | | | | | | |
| ***1.1. Doing Business Hesabatı üzrə*** | | | | | | | | |
| **1.1.1.** | **Kreditlərin alınması** | **118-ci yer,**<br>**40 bal** | | | | | | |
| 1.1.1.1. | Hüquqi norma indeksi | 2 | Qanunvericiliyə istinadən kreditorların və borcalanların hüquqlarının təminatı hesablanır (0-12 ballıq indeks ilə) | 1. Daşınar əmlak üzərində yüklülüyün yaranması, üçüncü şəxslər üçün yüklülük barədə məlumatların əldə olunmasının açıqlığı, daşınar əmlaka tutma yönəldilməsi (realizəsi) ilə bağlı vahid yanaşmanı (girov, lizinq, faktorinq və digər bütün münasibətlər üzrə eyni prosedur) əks etdirən qanunvericilik aktlarının işlənməsi<br>2. Daşınar əmlakın hər hansı kateqoriyasının (məsələn, avadanlığın) yüklülük verənin (borclunun) sahibliyində qalmaqla müqavilədə və reyestrdə ümumi formada təsvirinə icazə verilməsi<br>3. Gələcəkdə əldə olunacaq əmlakın yüklü edilməsinə icazə verilməsi və yüklülüyün bəhərə, məhsula, habelə daşınar əmlakın əvəzlənməsi halında yeni daşınar əmlaka da avtomatik şamil olunması tədbirlərinin müəyyənləşdirilməsi<br>4. Əsas öhdəliyin ümumi formada təsvirinə, bütün növ öhdəliklərin təmin olunmasına və yüklülük | Daşınar əmlakın yüklülüyü haqqında qanun;<br>Daşınar əmlakın yüklülüyü reyestrinin aparılması qaydasının hazırlanması;<br>Mülki Məcəllə;<br>Vergi Məcəlləsi;<br>Gömrük Məcəlləsi;<br>“Müflisləşmə və iflas haqqında” Qanun;<br>“Banklar haqqında” Qanunda dəyişiklik;<br>“İpoteka | 2017 | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Nazirlər Kabineti<br>Ədliyyə Nazirliyi,<br>İqtisadiyyat Nazirliyi,<br>Maliyyə Bazarlarına Nəzarət Palatası, Dövlət Gömrük Komitəsi,<br>Vergilər Nazirliyi,<br>Əmlak Məsələləri Dövlət Komitəsi | Yüklülük mexanizminin təkmilləşdirilməsi nəticəsində əməliyyatların sayının artması |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | müqaviləsində əsas öhdəliyin maksimal ölçüsünün göstərilməsinin mümkünlüyünə icazə verilməsi<br>5. Fiziki və hüquqi şəxslər üçün şəffaf və əlçatan olan, bütün ölkəni və bütün aktivləri əhatə edən, habelə yüklülük verənin (borclunun) identifikasiyası ilə əlaqələndirilən onlayn reyestrin yaradılması və fəaliyyətinin təmin edilməsi<br>6. Reyestrin bildiriş əsasında yüklülüyü qeydə alması (elektron bildirişin qeydə alınması formasında və sənədləri özündə toplamadan) və yüklülüyün bütün növlərini əhatə etməsi<br>7. Reyestrin maraqlı üçüncü şəxs tərəfindən yeni yüklülüyün onlayn formada qeydə alınmasına, mövcud yüklülüklərdə dəyişiklik edilməsinə və onlara xitam verilməsinə, habelə axtarış aparılmasına imkan verməsi<br>8. Yüklülük müqaviləsinin bağlanması zamanı daşınar əmlaka tutma yönəldilməsinin məhkəmədənkənar qaydasına icazə verilməsi, yüklülük sahibinin (kreditorun) daşınar əmlakı dövlət və ya özəl hərracda satmasına, habelə borc əvəzində daşınar əmlakı mülkiyyətinə götürməsinə icazə verilməsi | haqqında” Qanunda dəyişiklik;<br>“Daşınmaz əmlakın dövlət reyestri haqqında” Qanun | | | |
| 1.1.1.2. | Kredit məlumatları-nın dərinliyi indeksi | 6 | Kredit büroları və kredit reyestrləri paylanan məlumatların əlçatanlığını hesablayırlar (0-8 ballıq indeks ilə) | 1. “Kredit büroları haqqında” Qanun çərçivəsində Azərbaycanda özəl kredit bürosunun yaradılması prosesinə dəstəyin gücləndirilməsi<br>2. Yaradılacaq kredit bürosunun məlumat bazasına pərakəndə ticarət və kommunal xidmət müəssisələrinin məlumatlarının inteqrasiyasının təmin edilməsi<br>3. Yeni özəl kredit bürosunda | | 2017-2018 | Nazirlər Kabineti,<br>Maliyyə Bazarlarına Nəzarət Palatası, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | İlk özəl kredit bürolarının təşkili |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | borcluların məlumatları əsasında onların kredit reytinqinin hesablanması üzrə potensialın yaradılmasına dəstək | | | | |
| ***1.2. Qlobal Rəqabətlilik Hesabatı üzrə*** | | | | | | | | |
| **1.2.1.** | **Maliyyə bazarlarının inkişafı** | **97-ci yer, 3.5 bal** | | | | | | |
| 1.2.1.1. | Biznesin ehtiyaclarını ödəyən maliyyə xidmətlərinin olması | 51-ci yer, 4.5 bal | *Özəl sektora verilən kreditlər:* özəl sektora verilən kreditlərin ÜDM-ə nisbəti; *Maliyyə sektorunun xidmətləri:* maliyyə sektoru xidmətlərinin biznes ehtiyaclarını nə dərəcədə qarşılaması (1-ən az, 7-ən çox, sorğu əsasında). | 1. Bank sisteminin kapitallaşdırılması və likvidliyin təmin edilməsi<br>2. Fəaliyyətə xitam verilməsi və müflisləşmə məsələlərinin həlli sahəsində islahatlar aparılması<br>3. Azərbaycanda lizinq və alternativ maliyyə alətləri (forvard, fyuçers, opsion, svop, faktorinq və s.) bazarının inkişaf etdirilməsi ilə KOS subyektlərinin maliyyəyə çıxışının asanlaşdırılması | Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi (Strateji hədəf 1 və 3);<br>Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi (Strateji hədəf 2) | 2017-2020 | Maliyyə Bazarlarına Nəzarət Palatası, Maliyyə Nazirliyi, Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi, Əmanətlərin Sığortalanması Fondu, Təhsil Nazirliyi,<br>Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | Maliyyə dərinliyinin (kreditlərin qeyri-neft ÜDM-ə nisbətinin) 60 faiz təşkil etməsi |
| 1.2.1.2. | Maliyyə xidmətlərinin əlçatanlığı | 52-ci yer, 4 bal | Maliyyə xidmətlərinin dəyərinin biznes fəaliyyətini məhdudlaşdır-ma səviyyəsi (1-ən çox, 7-ən az, sorğu əsasında). | 1. Maliyyə xidmətləri inklüzivliyinin gücləndirilməsi<br>2. KOS subyektləri ilə bağlı kreditlərə zəmanət fondunun yaradılması<br>3. Əmlak məsələləri üzrə fəaliyyətin təkmilləşdirilməsi və maliyyə əlçatanlığının artırılması | Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi (Strateji hədəf 1 və 3);<br>Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq | 2017-2020 | Maliyyə Bazarlarına Nəzarət Palatası, Mərkəzi Bank, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmanətlərin Sığortalanması Fondu, Təhsil Nazirliyi, | Maliyyə dərinliyinin (kreditlərin qeyri-neft ÜDM-ə nisbətinin) 60 faiz təşkil etməsi |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi (Strateji hədəf 2) | | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | |
| 1.2.1.3. | Yerli səhm bazarı ilə maliyyələşmə imkanları | 84-cü yer, 3.4 bal | *Səhm bazarı vasitəsilə maliyyələşmə:* şirkətlərin səhm və istiqraz vasitəsilə maliyyə vəsaitlərini cəlb etməsi (1-ən aşağı, 7-ən yüksək); *Listinqə daxil olan şirkətlər üzrə kapitalizasiya:* listinqə daxil olan şirkətlərin ümumi dəyərinin ÜDM-ə nisbəti. Ümumi dəyər dövriyyədə olan səhm sayının səhmin dəyərinə vurulması yolu ilə hesablanmış-dır. Bu göstərici səhm bazarının dərinliyini ölçür; | 1. Emitentlər və maliyyə vasitəçiləri üçün əlverişli mühitin yaradılması<br>2. İnvestorların maliyyə bazarlarına çıxış imkanlarının artırılması<br>3. Banklararası pul bazarında aktivliyin artırılması | Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi (Strateji hədəf 2) | 2017-2020 | Maliyyə Bazarlarına Nəzarət Palatası, Vergilər Nazirliyi, Ədliyyə Nazirliyi, Mərkəzi Bank, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2020-ci ildə real ÜDM-ə 125 milyon manat həcmində təsir;<br>2020-ci ilədək mühüm sektorlardan əlavə 5 şirkətin fond birjasında listinqə çıxması |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | *Korporativ istiqrazların buraxılması:* emissiya olunan yeni korporativ istiqrazların ÜDM-ə nisbəti. Bu göstərici ancaq özəl sektor tərəfindən buraxılan istiqrazları nəzərdə tutur (maliyyə holdinqləri və sığorta şirkətləri istisna olmaqla) və istiqraz bazarının dərinliyini ölçür. | | | | | |
| 1.2.1.4. | Kreditlərin əlçatanlığı | 101-ci yer, 3.3 bal | *Kommersiya banklarının filialları:* hər 100.000 nəfərə düşən filial sayı; *Bank hesabı olan əhalinin payı:* bank hesabı olanların yetkinlik yaşına çatmış (15 yaşdan yuxarı) əhalinin sayına nisbəti əhalinin maliyyəyə çıxışını | 1. Maliyyə sektorunda çalışan mütəxəssislərin bilik və bacarıqlarının təkmilləşdirilməsi<br>2. Yerli istehlakçıların maliyyə savadlılığının genişləndirilməsi və hüquqlarının müdafiəsi işlərinin gücləndirilməsi<br>3. Maliyyə sektorunda qeyri-işlək aktivlərin restrukturizasiya planının hazırlanması | Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi (Strateji hədəf 1 və 5); Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən Beynəlxalq Maliyyə Korporasiyasının dəstəyi ilə hazırlanmış | 2017-2020 | Maliyyə Bazarlarına Nəzarət Palatası, Mərkəzi Bank, Maliyyə Nazirliyi Əmanətlərin Sığortalanması Fondu | Maliyyə dərinliyinin (kreditlərin qeyri-neft ÜDM-ə nisbətinin) 60 faiz təşkil etməsi |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | göstərir;<br>*Kreditin əldə edilməsinin asanlığı:*<br>biznes üçün bank kreditinin alınmasının asanlığı (1-çox çətin, 7-çox asan, sorğu əsasında). | | Daşınar əmlakın yüklülüyü haqqında qanun | | | |
| 1.2.1.5. | Vençur kapitalı maliyyələş-məsinin mümkünlüyü | 48-ci yer,<br>3.1 bal | *KOS subyektlərinin maliyyələşdi-rilməsi:*<br>sahibkarlıq subyektlərinin maliyyə sektoruna çıxışı (1-çox aşağı, 7-çox yüksək, sorğu əsasında);<br>*Riskli layihələrin maliyyələşmə imkanları:*<br>innovativ, lakin riskli layihələrin (startap) maliyyələşmə-sinin mümkünlüyü (1-çox çətin, 7-çox asan, sorğu əsasında). | 1. Fəaliyyətə xitam verilməsi və müflisləşmə məsələlərinin həlli sahəsində islahatların aparılması<br>2. KOS subyektləri ilə bağlı kreditlərə zəmanət fondunun yaradılması<br>3. Əmlak məsələləri üzrə fəaliyyətin təkmilləşdirilməsi və maliyyə əlçatanlığının artırılması<br>4. KOS subyektlərinin beynəlxalq ticarət əməliyyatları üçün maliyyə xidmətlərinin genişləndirilməsi və birbaşa xarici investisiyaların təşviqi | Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi (Strateji hədəf 2 və 3) | 2017-2020 | Maliyyə Bazarlarına Nəzarət Palatası, Mərkəzi Bank, Maliyyə Nazirliyi, Əmanətlərin Sığortalanması Fondu, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Təhsil Nazirliyi,<br>Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2020-ci ilədək maliyyə xidməti ilə təminatın yaxşılaşdırılması;<br>2020-ci ilədək il ərzində ən azı 25 startap layihəsinin başlanması |
| 1.2.1.6. | Bankların dayanıqlılığı | 98-ci yer,<br>4.3 bal | *Bankların dayanıqlılığı:*<br>(1-ən aşağı - bankların | 1. Kredit məlumatlarının mübadiləsi sisteminin təkmilləşdirilməsi<br>2. Hüquqi çərçivəyə yenidən baxılması, məhkəmə qərarlarının | Azərbaycan Respublikasında maliyyə xidmətlərinin | 2017-2018 | Maliyyə Bazarlarına Nəzarət Palatası, | Bank sektorunun gəlirliliyinin 2015-ci ilə nəzərən 7 faiz artması; |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | rekapitalizasiyasına ehtiyac var, 7-bankların balansları sağlamdır, sorğu əsasında);<br>*Bankların qeyri-işlək kreditləri:*<br>vaxtı keçmiş kreditlərin ümumi kredit portfelində çəkisi (vaxtı keçmiş kreditlər ehtiyatlara ayırmalardan əvvəl). Bu göstərici bank sektorunun dayanıqlılığını göstərir;<br>*Kredit fərqi:*<br>özəl sektora verilmiş kreditlərin ÜDM-ə nisbəti və eyni göstəricinin 20 illik trendlə fərqi. Bu göstərici maliyyə dayanıqsızlılığının yaranmasını göstərir;<br>*Bankların likvidlik əmsalı:* | icrası proseslərinin sürətləndirilməsi<br>3. Bankların daha sağlam risk idarəetməsinin təmin edilməsi<br>4. Maliyyə xidmətləri sektorunda konsolidasiya edilmiş riskəsaslı nəzarət modelinin tətbiqi<br>5. Bankların rəqəmsal transformasiyasının sürətləndirilməsi üçün tənzimləmə mexanizminin təkmilləşdirilməsi<br>6. Maliyyə xidmətləri sektorunda hesabatlılığın şəffaflığının artırılması<br>7. Sığorta fəaliyyətini tənzimləmə və ona nəzarət mexanizminin gücləndirilməsi | inkişafına dair Strateji Yol Xəritəsi (Strateji hədəf 1, 3, 4 və 5) | | Mərkəzi Bank, Maliyyə Nazirliyi,<br>Əmanətlərin Sığortalanması Fondu, Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi | qeyri-işlək kredit əmsalının 8 faizədək azaldılması;<br>2020-ci ildə real ÜDM-ə 235 milyon manat təsirin olması (205 milyon manat birbaşa və 30 milyon manat dolayı);<br>2025-ci ilədək Basel III standartlarına tam keçid, həmçinin risk idarəetməsi üzrə bacarıqların artırılması. | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | bankların likvid aktivlərinin onların qısamüddətli borclarına və depozitlərinin cəminə nisbəti. Bank sektorunun likvidliyini göstərir;<br>*Requlyativ kapital adekvatlığı:*<br>bankların requlyativ kapitalının onların risklə ölçülmüş aktivlərinə nisbəti. Bank sektorunun dayanıqlılığını göstərir;<br>*Ən böyük 5 bankın aktivlərinin ümumi aktivlərdə payı:*<br>ən böyük beş bankın aktivlərinin ümumi bank sektorunun aktivlərində payı. Bank sektorundakı təmərküzləş-məni göstərir. | | | | | |
| 1.2.1.7. | Qiymətli kağızlar bazarının | 88-ci yer,<br>4 bal | Tənzimləyici orqanların maliyyə | 1. Emitentlər və maliyyə vasitəçiləri üçün əlverişli mühitin yaradılması<br>2. İnvestorların maliyyə bazarlarına | Azərbaycan Respublikasında maliyyə | 2017-2018 | Maliyyə Bazarlarına Nəzarət | 2020-ci ilədək mühüm sektorlardan əlavə |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | tənzimlənməsi | | sektorunun sabitliyini nə dərəcədə təmin etməsi (1- etmir, 7-yüksək səviyyədə edir, sorğu əsasında). | çıxış imkanlarının artırılması<br>3. Banklararası pul bazarında aktivliyin artırılması | xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi (Strateji hədəf 2) | | Palatası, Vergilər Nazirliyi,<br>Ədliyyə Nazirliyi, Mərkəzi Bank, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 5 şirkətin fond birjasında listinqə çıxması |
| 1.2.1.8. | Hüquqi norma indeksi | 108-ci yer,<br>2 bal | *Kredit məlumatlarının dərinliyi:*<br>kredit reyestrində məlumatların əhatəliliyi, genişliyi və əlçatanlığı (0-8 ballıq şkala üzrə, sorğu aparılmadan);<br>*Hüquqların qorunması:*<br>borcalan və borcverənlərin hüquqlarının girov və müflisləşmə haqqında qanunlarla qorunması (0-12 ballıq şkala üzrə). Kreditləşmənin asanlığını göstərir;<br>*Dövlət kredit reyestrinin* | 1. Kredit məlumatlarının mübadiləsi sisteminin təkmilləşdirilməsi<br>2. Maliyyə xidmətləri sektorunda hesabatlılığın şəffaflığının artırılması<br>3. Fəaliyyətə xitam verilməsi və müflisləşmə məsələlərinin həlli sahəsində islahatların aparılması<br>4. KOS subyektləri ilə bağlı kreditlərə zəmanət fondunun yaradılması | Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən Beynəlxalq Maliyyə Korporasiyasının dəstəyi ilə hazırlanmış Daşınar əmlakın yüklülüyü haqqında qanun;<br>Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi (Strateji hədəf 3, prioritet 3.1; Strateji hədəf 4, prioritet 4.4);<br>Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq | 2017-2018 | Maliyyə Bazarlarına Nəzarət Palatası, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi,<br>Əmlak Məsələləri Dövlət Komitəsi,<br>maliyyə sektorunun nümayəndələri | Borcalanlar barədə daha geniş məlumat bazasının yaradılması |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | *əhatəliliyi:* ötən 5 il ərzində kredit reyestrində kredit tarixçəsi olan şəxslərin və şirkətlərin sayının 15 yaş və ondan yuxarı yaş qrupuna aid olan əhalinin sayına nisbəti; *Özəl kredit reyestrinin əhatəliliyi:* ötən 5 il ərzində özəl kredit bürolarında kredit tarixçəsi olan şəxslərin və şirkətlərin sayının 15 yaşdan yuxarı əhali qrupuna nisbəti | | səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi (Strateji hədəf 2) | | | |
| **2. Effektiv idarəetmə və makroiqtisadi göstəricilər** | | | | | | | | |
| ***2.1. Qlobal Rəqabətlilik Hesabatı üzrə*** | | | | | | | | |
| **2.1.1.** | **İnstitutlar** | **48-ci yer, 4.2 bal** | | | | | | |
| 2.1.1.1. | İnvestorların müdafiəsi səviyyəsi | 36-cı yer, 6.3 bal | Bu göstərici Dünya Bankının “Doing Business” hesabatından götürülmüş 3 indeksin kombinasiyası kimi hesablanır: | 1. Əməliyyatların şirkətə vurduğu zərərə görə bu məsələdə maraqlı direktorun (əsas səhmdarın, nəzarət səhm paketi sahibinin) səhmdarlar tərəfindən məsuliyyətə cəlb edilməsi qaydasının dəyişdirilməsi və əməliyyatın ədalətsiz və ya digər səhmdarlara qarşı qərəzli olduğu bütün hallarda maraqlı direktorun | “Qiymətli kağızlar bazarı haqqında” Qanunda dəyişiklik; Qiymətli kağızlar bazarı üzrə fəaliyyəti tənzimləyən | 2017-2018 | Maliyyə Bazarlarına Nəzarət Palatası, İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi | Qeyd olunan təkliflərin icrası nəticəsində direktorun məsuliyyəti indeksində ümumilikdə 5 bal, direktorlara qarşı iddia qaldırılmasının sadəliyi indeksində |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | əməliyyatların şəffaflığı (“*Extent of disclosure index”*), direktorun əməliyyatlara görə nə dərəcədə məsuliyyət daşıması (“*Extent of director liability index”*) və səhmdarların rəsmi şəxslərə/ direktorlara qarşı iddia qaldırmasının asanlığı (“*Ease of shareholder suit index”*). Bu 3 indeksin hər biri 0-10 bal intervalında qiymətləndirilir.<br>Azərbaycan üçün əməliyyatların şəffaflığı indeksi maksimal 10 balla qiymətləndirilmişdir. Əsas çatışmazlıqlar direktorun məsuliyyətdaşıma səviyyəsində (5 bal) və səhmdarların iddia qaldırması prosesindədir (8 bal). | məsuliyyətə cəlbinin nəzərdə tutulması<br>2. Əməliyyatın alıcıya vurduğu zərərə görə digər direktorların/təsdiqləyici orqanın (icraçı direktorun, idarəetmə heyətinin və ya müşahidə şurası üzvlərinin) səhmdarlar tərəfindən məsuliyyətə cəlb edilməsi qaydasının dəyişdirilməsi<br>3. Məlumatların açıqlanmaması və şikayətçidən gizlədilməsi hallarının aradan qaldırılması məqsədilə şikayətçi tərəfindən ittiham olunan şəxsdən müxtəlif sənədlərin ayrı-ayrılıqda adlarını qeyd etməklə əldə edilməsi qaydasının dəyişdirilməsi<br>4. Şikayətçi səhmdarlara, hüquqi iddianın nəticələrindən asılı olmayaraq, öz xərclərinə görə şirkət tərəfindən təzminatın ödənilməsi qaydasının müəyyən edilməsi | normativ hüquqi aktlarda dəyişiklik;<br>Mülki Məcəllədə dəyişiklik;<br>İnzibati Xətalar Məcəlləsində dəyişiklik;<br>Cinayət Məcəlləsində dəyişiklik. | | | isə 2 bal artıma nail olunması |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 2.1.1.2. | Dövlət sektorunda qərarların qəbulunda şəffaflıq | 41-ci yer, 4.6 bal | Sorğu əsasında hesablanır. Suallar dövlətin qəbul etdiyi yeni qərarlarla bağlı məlumat əldə edilməsinin asanlığı səviyyəsini müəyyən edir (1-çox çətin; 7-çox asan). | 1. Yeni dövlət qərarlarının, qanunvericilik aktlarının mahiyyətinin qısa əks olunduğu, istifadəçilər üçün daha asan və əlçatan onlayn resursların yaradılması<br>2. Dövlət qərarlarının mətbuatda daha aydın işıqlandırılması və izahının təmin edilməsi | Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi (Strateji hədəf 1, prioritet 1.1, tədbir 1.1.4, 1.1.5) | 2017-2018 | Nazirlər Kabineti, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi | Yeni onlayn resursların istifadəyə verilməsi |
| **2.1.2.** | **Makroiqtisadi mühit** | **39-cu yer, 5.2 bal** | | | | | | |
| 2.1.2.1. | Dövlət büdcəsi kəsiri/ profisiti | 74-cü yer<br>-3.4% | Büdcə kəsirinin ÜDM-də payını hesablayır. Büdcə kəsiri/profisiti = (gəlirlər-xərclər)/ÜDM | 1. Büdcə konsolidasiyasının davam etdirilməsi<br>2. Funksional və təşkilati xərc maddələri üzrə büdcə xərclərinə tavanların tətbiqi | Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi (Strateji hədəf 1, prioritet 1.2; Strateji hədəf 4, prioritet 4.1);<br>"Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu | 2017 | Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi | 2017-ci il üçün təsdiqlənmiş büdcə layihəsinə əsasən, büdcə kəsirinin nominal ifadədə 645 mln. manat olacağı gözlənilir (2016-cı ildə 241 mln manat). BVF 2017-ci ildə Azərbaycanda nominal ÜDM 59.7 mlrd. manat səviyyəsində proqnozlaşdırır. Proqnoza əsasən, 2017-ci ildə büdcə kəsiri ÜDM-in 1.1%-i həcmində olmalıdır və bu da müvafiq reytinqin yaxşılaşacağına imkan verir. |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 2.1.2.2. | Ümumi dövlət borcu | 41-ci yer<br><br>36.1% | Ümumi dövlət borcu dedikdə SDR şəklində öhdəliklər,<br>valyuta və depozitlər, borc qiymətli kağızları, borclar, standartlaşdırıl-mış zəmanət sxemləri və digər öhdəliklər nəzərdə tutulur (borcun ÜDM-də payı ilə hesablanır). | Dövlət borcunun idarə edilməsi və aşağı səviyyədə saxlanılması məqsədilə qısa, orta və uzunmüddətli dövr üçün dövlət borcunun idarə edilməsi strategiyasının işlənib hazırlanması | "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu;<br>Maliyyə Sabitliyi Şurası tərəfindən təsdiq edilmiş "2017-ci ilə və ortamüddətli dövrə makroiqtisadi və maliyyə sabitliyinin təmin olunması üzrə tədbirlər planı" | 2017-2018 | Nazirlər Kabineti,<br>Maliyyə Nazirliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası,<br>İqtisadiyyat Nazirliyi,<br>Dövlət Neft Fondu | Dövlət borcunun ÜDM-də xüsusi çəkisinin 40 faiz həddini keçməməsi |
| ***2.2. İqtisadi Azadlıq Hesabatı üzrə*** | | | | | | | | |
| **2.2.1.** | **Dövlətin meyarı** | | | | | | | |
| 2.2.1.1. | Dövlətin xərcləri indeksi | 121-ci yer,<br>56.7 bal | *DX* = 100- 0.03* (*expenditures*$_i$). (Burada *DX* – dövlət xərcləri indeksi,<br>*expenditures*$_i$ – dövlət xərclərinin ÜDM-də payıdır).<br>0-100 ballıq indeks ilə qiymətləndirilir.<br>Dövlət xərcləri ÜDM-in 17-30 faizi aralığında olduqda səmərəliliyin | 1.Fiskal konsolidasiya prosesinin davam etdirilməsi<br>2.Ortamüddətli xərc çərçivəsinin yaradılması<br>3.Neft gəlirlərindən istifadəni tənzimləyəcək fiskal qaydaların qəbulu | Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi (Strateji hədəf 1, prioritet 1.1, 1.2);<br>"Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Qanun | 2017-2020 | Nazirlər Kabineti,<br>Maliyyə Nazirliyi,<br>İqtisadiyyat Nazirliyi,<br>Vergilər Nazirliyi,<br>Dövlət Neft Fondu | Yeni fiskal qaydaların qüvvəyə minməsi |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | maksimuma çatdığı hesab edilir (Azərbaycanda – 38%). | | | | | |
| **2.2.2.** | **Tənzimlə-mənin effektivliyi** | | | | | | | |
| 2.2.2.1. | Monetar azadlıq indeksi | 96-cı yer, 77 bal | $MF_i$=100-6.333* *√*w.a. inflation*$_i$ - *PC penalty*$_i$ . (Burada *w.a. inflation*$_i$ – son 3 ilin inflyasiya göstəricilərinin çəkili orta həddi (müvafiq olaraq, 0.665, 0.245 və 0.09 çəki ilə), *PC penalty*$_i$ isə ölkədə qiymət tənzimlənməsi səviyyəsindən asılı olaraq 0-20 bal intervalında verilən qiymətdir. (Azərbaycan üzrə təxminən 12 bal).<br>Ümumi göstərici 0-100 ballıq indeks ilə qiymətləndirilir. | 1.İnflyasiyanın azaldılması istiqamətində, o cümlədən pul bazasının məhdudlaşdırılması ilə bağlı tədbirlərin davam etdirilməsi<br>2.Qiymətlərin daha da liberallaşdırılması (hazırda Azərbaycanda 39 adda müxtəlif məhsul üzrə qiymətləri Tarif (qiymət) Şurası tənzimləyir) | “2017-ci ilə və ortamüddətli dövrə makroiqtisadi və maliyyə sabitliyinin təmin olunması üzrə tədbirlər planı” çərçivəsində nəzərdə tutulmuş “2017-ci il üçün pul proqramı” | 2017 | Mərkəzi Bank,<br>Nazirlər Kabineti,<br>Tarif (qiymət) Şurası | İnflyasiyanın birrəqəmli səviyyəyə endirilməsi |
| ***2.3. Qlobal İnnovasiyalar Hesabatı üzrə*** | | | | | | | | |
| **2.3.1.** | **Siyasi mühit** | **92-ci yer, 40 bal** | | | | | | |
| 2.3.1.1. | Hökumətin səmərəliliyi | 86-cı yer, | Bu göstərici dövlət | 1. Dövlət xidmətlərinin səviyyəsinin və idarəçilik keyfiyyətinin daha da | Azərbaycan Respublikasının | 2017-2018 | Nazirlər Kabineti, | Dövlət xidmətlərinin artan keyfiyyətinin |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | 29.6 bal | xidmətlərinin keyfiyyəti, qərar layihələrinin hazırlanması və icrasının keyfiyyəti, dövlətin öz öhdəliklərinə nə dərəcədə sadiq olması kimi məsələləri qiymətləndirmək üçün [-2.5; 2.5] intervalında vahid indeks kimi hesablanır. Hesablanmada mülahizəəsaslı mənbələrdən, firma və ev təsərrüfatları arasında sorğulardan, biznes informasiyası təminatçılarının və QHT-lərin subyektiv qiymətləndirmələrindən istifadə olunur. | artırılması<br>2. Hüquqi aktların icrası üzərində nəzarətin gücləndirilməsi, şəffaflığın təmin olunması<br>3. Ölkə vətəndaşlarına dövlət orqanlarında göstərilən xidmətləri qiymətləndirməyə imkan verən dövlət xidmətinin monitorinqi informasiya-analitik sisteminin (rəsmi sayt) yaradılması | milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi (Strateji hədəf 4, prioritet 4.1);<br>Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi (Strateji hədəf 1, prioritet 1.2);<br>2017-ci ilə və ortamüddətli dövrə makroiqtisadi və maliyyə sabitliyinin təmin olunması üzrə tədbirlər planı | | Maliyyə Sabitliyi Şurası,<br>İqtisadiyyat Nazirliyi,<br>Vergilər Nazirliyi,<br>Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi,<br>Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | sorğu zamanı respondentlər tərəfindən qeyd edilməsi |
| **2.3.2.** | **Tənzimləmə mühiti** | 97-ci yer,<br>53.8 bal | | | | | | |
| 2.3.2.1. | Tənzimləmənin keyfiyyəti | 87-ci yer,<br>37.5 bal | Dövlətin özəl sektorun inkişafını dəstəkləyən sağlam və şəffaf siyasət formalaşdırmaq və icra etmək qabiliyyətinin səviyyəsi, [-2.5; | Qanunvericiliyin təsiri analizi təcrübəsinin tətbiqi | Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi (Strateji hədəf 4, prioritet 4.1);<br>2017-ci ilə və ortamüddətli | 2017-2018 | Nazirlər Kabineti,<br>İqtisadiyyat Nazirliyi,<br>Vergilər Nazirliyi,<br>Nəqliyyat, Rabitə və Yüksək | Yeni qanunvericilik aktlarının hazırlanması prosesinə təsir analizinin daxil edilməsi |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | 2.5] intervalında vahid indeks kimi hesablanır. Mülahizəəsaslı mənbələrdən (sorğu və subyektiv qiymətləndirmə-lərdən) istifadə olunur. | | dövrə makroiqtisadi və maliyyə sabitliyin təmin olunması üzrə tədbirlər planı | | Texnologiyalar Nazirliyi | |
| ***2.4. Qlobal İmkanlar Hesabatı üzrə*** | | | | | | | | |
| **2.4.1.** | **Beynəlxalq standartlar və siyasət** | **86-cı yer** | | | | | | |
| 2.4.1.1. | Valyuta məzənnəsi rejimi | | Valyuta məzənnəsi rejiminin konkret hansı bal intervalında indeks kimi hesablandığı açıqlanmır (Ehtimal edilir ki, məzənnə rejimi nə dərəcədə liberal olarsa, beynəlxalq reytinq bir o qədər yüksələr). | Valyuta rejiminin, xüsusilə kapitalın hərəkəti rejiminin daha da liberallaşdırılması | Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi (Strateji hədəf 1, prioritet 1.3);<br>2017-ci ilə və ortamüddətli dövrə makroiqtisadi və maliyyə sabitliyinin təmin olunması üzrə tədbirlər planı | 2017 | Maliyyə Sabitliyi Şurası,<br>Mərkəzi Bank | Sərbəst üzən məzənnə rejiminə keçid və valyuta rejiminin, xüsusilə kapitalın hərəkəti rejiminin daha da liberallaşdırılması tədbirləri nəticəsində ölkənin mövqeyinin yaxşılaşdırılması |
| **3. Əmək bazarı** | | | | | | | | |
| ***3.1. Doing Business Hesabatı üzrə*** | | | | | | | | |
| **3.1.1.** | **İşə qəbul** | Yeni indikator olduğu üçün təyin | Əmək bazarı haqqında təfərrüatlı sorğu əsasında | Müddətli əmək müqaviləsinin maksimal müddətinin aradan qaldırılması ilə bağlı qanunvericilikdə müvafiq dəyişikliklər edilməsi | Əmək Məcəlləsində dəyişiklik | 2017 | Azərbaycan Respublikası Prezidentinin Administrasiya- | Əmək qanunvericiliyində müvafiq dəyişiklik edilməsi |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | edilmə-mişdir. | hesablanır. | | | | sı,<br>Nazirlər Kabineti,<br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,<br>Ədliyyə Nazirliyi,<br>İqtisadiyyat Nazirliyi,<br>Maliyyə Nazirliyi | |
| **3.1.2.** | **İxtisar xərcləri** | Yeni indikator olduğu üçün təyin edilmə-mişdir. | Əmək bazarı haqqında təfərrüatlı sorğu əsasında hesablanır. | 1. İşçilərin sayı və ya ştatları ixtisar edildikdə, işəgötürən tərəfindən əmək müqaviləsi ləğv edilməzdən əvvəl ən azı iki aylıq rəsmi xəbərdarlıq müddəti ilə əlaqədar tələbin iş stajından asılı olaraq diferensiallaşdırılması ilə bağlı qanunvericilikdə müvafiq dəyişikliklər edilməsi<br>2. İş stajından asılı olaraq işdənçıxarma müavinətinin diferensiallaşdırılması, işsizlikdən sığorta sisteminin tətbiq edilməsi, işçilərə işdən çıxarıldığı gündən yeni işə düzələn günədək ikinci və üçüncü aylar üçün ödənilən orta aylıq əməkhaqqının işsizlikdən sığorta ödənişi ilə əvəz edilməsi ilə bağlı yeni qanunvericilik aktının hazırlanması, mövcud qanunvericilikdə müvafiq dəyişikliklər edilməsi | Əmək Məcəlləsində dəyişiklik;<br>İşsizlikdən sığorta haqqında qanunun qəbulu | 2017 | Azərbaycan Respublikası Prezidentinin Administrasi-yası,<br>Nazirlər Kabineti,<br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,<br>Ədliyyə Nazirliyi,<br>İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi | Əmək qanunvericiliyində müvafiq dəyişiklik edilməsi |
| ***3.2. Qlobal Rəqabətlilik Hesabatı üzrə*** | | | | | | | | |
| **3.2.1.** | **Əmək bazarının səmərəliliyi** | **26-cı yer, 4.8 bal** | | | | | | |
| 3.2.1.1. | Vergitutmanın əməyin stimullaşdır- | 61-ci yer,<br>4 bal | Əmək bazarı haqqında təfərrüatlı sorğu | Məcburi dövlət sosial sığorta haqlarının strukturunda işçi ilə işəgötürən arasında nisbətlərə | “Sosial sığorta haqqında" Qanunda | 2017 | Azərbaycan Respublikası Prezidentinin | Əmək qanunvericiliyində müvafiq dəyişiklik |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | masına təsiri | | əsasında hesablanır. | yenidən baxılması, işəgötürənin payının bu nisbətdə mərhələlərlə azaldılması və işçinin payının artırılması | dəyişiklik | | Administrasi-yası, Nazirlər Kabineti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi | edilməsi |
| 3.2.1.2. | Ödəmə və məhsuldarlıq | 34-cü yer, 4.5 bal | Əmək bazarı haqqında təfərrüatlı sorğu əsasında hesablanır. | Diversifikasiya, texnologiya, işçi qüvvəsinin bacarıqlarının artırılması və innovasiyalar, o cümlədən yüksək əlavə dəyər yaradan əməktutumlu sahələrin inkişafını dəstəkləməklə əmək məhsuldarlığının artırılması istiqamətində tədbirlər görülməsi | Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2017-2030-cu illər) | 2017 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Statistika Komitəsi | Əmək məhsuldarlığında artım dinamikasının müşahidə edilməsi |
| 3.2.1.3. | Ölkədə insan kapitalının saxlanılma potensialı | 37-ci yer, 4.1 bal | Əmək bazarı haqqında təfərrüatlı sorğu əsasında hesablanır. | Əmək bazarında çevikliyin təmin edilməsi, peşələr üzrə monitorinq aparılması, formal (akademik) təhsilin əmək bazarının tələblərinə uyğunlaşdırılması, peşə təlimi, ixtisasartırma və yenidən hazırlıq vasitəsilə əmək bazarında baş verən sürətli dəyişikliklərin qarşılanması üçün peşə standartlarının hazırlanması prosesinin davam etdirilməsi, əmək bazarında rəqabətqabiliyyətli kadrların hazırlanması məqsədilə peşə təhsili (ilk peşə-ixtisas, orta ixtisas və ali) sisteminin təkmilləşdirilməsi | Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi; Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2017-2030-cu illər). | 2017 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Təhsil Nazirliyi | Əmək məhsuldarlığında artım dinamikasının müşahidə edilməsi |
| **4. Fiziki infrastruktur** | | | | | | | | |
| ***4.1. Qlobal Rəqabətlilik Hesabatı üzrə*** | | | | | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **4.1.1.** | **İnfrastruktur** | **55-ci yer, 4.3 bal** | | | | | | |
| 4.1.1.1. | Ümumi infrastrukturun keyfiyyəti | 34-cü yer, 4.8 bal | Ölkə üzrə statistik məlumatlara və hesabatlara əsasən hesablanır. | 1. Hər bir aidiyyəti dövlət qurumunda tələb həcmlərindən asılı olaraq, müvafiq reytinqlərdə yüksəlişin təmin edilməsi üzrə ayrıca təsisatların (*şöbə, sektor və s.*) yaradılması məsələsinə baxılması<br>2. Beynəlxalq reytinqlər üzrə sorğularda iştirak edən şirkətlərlə (*rezident və qeyri-rezident*) müvafiq sahədə mütəmadi əməkdaşlığın təmin olunması<br>3. İldə 2 dəfə (*müvafiq beynəlxalq təşkilatlardan öncə*) aidiyyəti şirkətlərdə müvafiq reytinqlər üzrə ilkin operativ proqnozlar alınması üçün paralel sorğular (*dövlət qurumları, qeyri-hökumət təşkilatları, könüllülər*) keçirilməsinin təşkili<br>4. Şəhərsalma və tikinti normalarının, həmçinin müvafiq standartların təkmilləşdirilməsi, bu texniki normativ hüquqi aktlara riayət olunmamasına görə məsuliyyətin artırılması<br>5. İnkişaf etməkdə olan ölkələrdə infrastrukturun keyfiyyətinin yüksəldilməsinə dəstək məqsədilə Beynəlxalq Standartlaşdırma Təşkilatı (ISO) tərəfindən hazırlanmış 2016–2020-ci illər üzrə Fəaliyyət Planı çərçivəsində Beynəlxalq Standartlaşdırma Təşkilatı ilə sıx əməkdaşlığın qurulması<br>6. Məktəblərdə internetə çıxış imkanlarının tam təmin olunması | | 2017-2018 | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi,<br>Bakı Şəhər İcra Hakimiyyəti, Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi,<br>Ədliyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Təhsil Nazirliyi, Dövlət Statistika Komitəsi, Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, “Azərenerji” ASC,<br>“Azərişıq” ASC, “Azərbaycan Dəmir Yolları” QSC, “Azərbaycan Hava Yolları” QSC, “Azəravtoyol” ASC, “Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi” | Müvafiq altreytinqdə müsbət dinamikanın əldə edilməsi |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | QSC,<br>Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyi | |
| 4.1.1.2. | Yolların keyfiyyəti | 50-ci yer,<br>4.4 bal | Ölkə üzrə statistik məlumatlara və sorğulara əsasən hesablanır. | 1. Piyada infrastrukturunun müvafiq normalar çərçivəsində yaradılması, saxlanılması və inkişaf etdirilməsi (xüsusilə, əlilliyi olan insanların bu infrastrukturdan rahat istifadə etmələrinə diqqət yetirməklə) ilə bağlı məsuliyyətin artırılması<br>2. İctimai nəqliyyatda (xüsusilə şəhərdaxili avtobus xidmətlərində) xidmət keyfiyyəti standartlarının tətbiqi və bu standartlara riayət olunmamasına görə məsuliyyətin müəyyən edilməsi | | 2017-2018 | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi,<br>Bakı Şəhər İcra Hakimiyyəti, Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyi,<br>Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, “Azəravtoyol” ASC | Piyada infrastrukturunun yaxşılaşdırılması, ictimai nəqliyyatda xidmət səviyyəsinin yüksəldilməsi |
| 4.1.1.3. | Hava yolu ilə bir həftə üzrə sərnişin/km göstəricisi | 84-cü yer,<br>100.7 bal | Ölkə üzrə statistik məlumatlara və hesabatlara əsasən hesablanır. | Hava nəqliyyatı ilə sərnişindaşımada reyslərin yüklənmə faktorunun hesablanması üçün beynəlxalq standartlara və geniş tətbiq olunan praktikaya əsasən, illik bütün uçuşlar üzrə oturacaqların dolma əmsalından (“Load Factor”) istifadə edilməsi | | 2017-2018 | Dövlət Mülki Aviasiya Administrasi-yası,<br>“Azərbaycan Hava Yolları” QSC, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | Hava nəqliyyatında reyslərin yüklənmə əmsalının optimallaşdırılması |
| 4.1.1.4. | Elektrik enerjisi təchizatının keyfiyyəti | 59-cu yer,<br>5.1 bal | Ölkə üzrə statistik məlumatlara və sorğulara əsasən hesablanır. | Smart sayğac sisteminin tətbiqinin başa çatdırılması | Elektrik qurğularının quraşdırılması qaydalarının hazırlanaraq təsdiq edilməsi | 2017-2018 | Energetika Nazirliyi, “Azərenerji” ASC,<br>“Azərişıq” ASC, Standartlaşdır- | Elektrik enerjisindən istifadədə itkilərin azaldılması |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | ma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | |
| 4.1.1.5. | Mobil telefon abunəçilərinin sayı | 81-ci yer, 111.3 bal | Ölkə üzrə statistik məlumatlara və hesabatlara əsasən hesablanır. | 1. Mobil operatorlar tərəfindən bölgələrdə LTE xidmətlərinin genişləndirilməsi və optimallaşdırılması məqsədilə 700-800 MHz tezlik zolaqlarının boşaldılması üçün tədbirlər görülməsi və həmin tezliklərdə xidmətin təşkili<br>2. 3G və 4G şəbəkələrinin əhatə dairəsinin genişləndirilməsini sürətləndirmək məqsədilə mobil operatorların bu istiqamətdə apardıqları işlərin stimullaşdırılması<br>3. Mobil xidmətlərin paket halında təqdim olunan çeşidinin artırılması | "Telekommunika-siya haqqında" Qanunda dəyişiklik | 2017-2018 | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | Mobil telefon xidmətlərinin həcminin və çeşidinin artması |
| 4.1.1.6. | Şəhər telefon abunəçilərinin sayı | 58-ci yer, 18.7 bal | Ölkə üzrə statistik məlumatlara və hesabatlara əsasən hesablanır. | 1. Bakı şəhərində və onun qəsəbələrində, eləcə də bölgələrdə mövcud daxili imkanlardan (ATS-lərdə olan boş nömrələr və internet portları, yeni texnologiyalar tətbiq etməklə xətt şəbəkəsinin qurulması və xidmət keyfiyyətinin artırılması) tam istifadə edilməsi üçün tədbirlərin həyata keçirilməsi<br>2. Xarici telekommunikasiya operatorlarının sabit şəbəkə abunəçilərinə göstərdiyi xidmətlərin çeşidinin artırılması təcrübəsinin öyrənilməsi və regionlarda tətbiqinə baxılması | "Telekommunika-siya haqqında" Qanunda dəyişiklik | 2017-2018 | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | Stasionar telefon xidmətlərinin həcminin və çeşidinin artması |
| ***4.2. Qlobal İmkanlar Hesabatı üzrə*** | | | | | | | | |
| **4.2.1.** | **İqtisadi əsaslar** | **51-75 bal arası** | | | | | | |
| 4.2.1.1. | Fiziki infrastruktur | | Ölkə üzrə statistik məlumatlara və hesabatlara əsasən | Müvafiq infrastruktur üzrə tikinti, yenidənqurma, təmir və saxlama işlərini həyata keçirən dövlət qurumlarında müasir informasiya-kommunikasiya texnologiyaları | | 2017 | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, | Müvafiq reytinqlər üzrə irəliləyişin təmin edilməsi, infrastrukturun təkmilləşməsi və |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | hesablanır. | əsasında və müvafiq verilənlər bazası ilə işləyən aktivlərin idarə edilməsi (“asset management” və ya “transportation asset management”) sisteminin yaradılması | | | Maliyyə Nazirliyi,<br>Energetika Nazirliyi,<br>İqtisadiyyat Nazirliyi,<br>Ədliyyə Nazirliyi,<br>Fövqəladə Hallar Nazirliyi,<br>Standartlaşdırma,Metrologiya və Patent üzrə Dovlət Komitəsi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi,<br>“Azərbaycan Dəmir Yolları” QSC, “Azərbaycan Hava Yolları” QSC, ”Azəravtoyol” ASC,<br>“Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi” QSC,<br>Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyi | rəqəmsallaşması |
| ***4.3. Qlobal İnnovasiyalar Hesabatı üzrə*** | | | | | | | | |
| **4.3.1.** | **Ümumi infrastruktur** | **104-cü yer,<br>25.2 bal** | | | | | | |
| 4.3.1.1. | Elektrik enerjisi istehsalı | 69-cu yer,<br>2.5 bal | Ölkə üzrə statistik məlumatlara və | Mövcud generasiya mənbələrinin qiymətləndirilmə yolu ilə seçilərək modernləşdirilməsi, səmərəliliyi ilə | | 2017 | Energetika Nazirliyi, “Azərenerji” | Müvafiq reytinqlər üzrə irəliləyişin təmin edilməsi, |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | hesabatlara əsasən hesablanır. | seçilən generasiya mənbələrinin tətbiqi, bərpa olunan enerji mənbələrindən istifadə | | | ASC,<br>“Azərişıq” ASC,<br>İqtisadiyyat Nazirliyi,<br>Ekologiya və Təbii Sərvətlər Nazirliyi,<br>Fövqəladə Hallar Nazirliyi,<br>Bakı Şəhər İcra Hakimiyyəti | ekoloji təhlükəsizliyin möhkəmləndirilmə-si, infrastrukturun təkmilləşməsi və rəqəmsallaşması |
| 4.3.1.2. | Logistik performans | 113-cü yer,<br>2.4 bal | Ölkə üzrə statistik məlumatlara və hesabatlara əsasən hesablanır. | Müvafiq infrastruktur sahələri üzrə kəmiyyət və keyfiyyət indikatorlarının müəyyənləşdirilməsi və hazırlanan hesabatlarda bu indikatorlarla əlaqəli məlumatların yerləşdirilməsi (məsələn, dəmiryol nəqliyyatı üzrə: daşınan sərnişinlərin əhalinin sayına nisbəti, dəmiryol şəbəkəsinin hər km-inə düşən daşınmış sərnişinlərin sayı, daşınan sərnişinlərin sayının istismar prosesində iştirak edən şəxslərin sayına nisbəti, dəmiryol şəbəkəsinin hər km-inə düşən istismar xərcləri və s.) | | 2017-2018 | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi,<br>Energetika Nazirliyi,<br>Dövlət Statistika Komitəsi,<br>İqtisadiyyat Nazirliyi,<br>Ekologiya və Təbii Sərvətlər Nazirliyi,<br>Fövqəladə Hallar Nazirliyi,<br>Bakı Şəhər İcra Hakimiyyəti,<br>“Azərenerji” ASC,<br>“Azərişıq” ASC,<br>“Azərbaycan Dəmir Yolları” QSC,<br>“Azərbaycan Hava Yolları” QSC,<br>”Azəravtoyol” ASC, | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | “Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi” QSC,<br>Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyi | |
| **5. Müqavilələrin icrası, mübahisələrin həlli, müəssisənin bağlanması və müflisləşmə, məhkəmə sistemi və hüququn aliliyi** | | | | | | | | |
| ***5.1. Doing Business Hesabatı üzrə*** | | | | | | | | |
| **5.1.1.** | **Müflisləş-mənin həlli** | **86-cı yer, 44.7 bal** | | | | | | |
| 5.1.1.1. | Müddət (illər) | 1.5 | Qanunvericiliyə əsasən hesablanır. | Bu indikatorla bağlı görüləcək tədbirlər müvafiq strateji sənəddə əks olunmuşdur. | Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi (Strateji hədəf 2) | 2017-2018 | Əmlak Məsələləri Dövlət Komitəsi, Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi, İqtisadiyyat Nazirliyi | Yüklülük predmeti olan əmlaka münasibətdə hərraclar vasitəsilə satış mexanizminin genişləndirilməsi |
| 5.1.1.2. | Müflisləşmə qanunvericili-yinin effektivliyi | 7.5 | Qanunvericiliyə əsasən hesablanır (0-16 ballıq indeks ilə). | 1. Kreditorlar tərəfindən debitor müəssisənin yalnız ləğvi ilə bağlı ərizə vermək hüququ deyil, həmçinin debitor müəssisənin yenidən təşkil edilməsi və ya restrukturizasiyası haqqında ərizə vermək hüququnun qanunvericilikdə təsbit edilməsi | “Müflisləşmə və iflas” haqqında Qanunda dıyişiklik | 2017 | Ədliyyə Nazirliyi,<br>Vergilər Nazirliyi, İqtisadiyyat Nazirliyi,<br>Maliyyə Bazarlarına Nəzarət Palatası | 0.5 bal artım |
| | | | | 2. Müflisləşmə elan edildikdən sonra debitor müəssisənin aktivlərinin olduğundan aşağı qiymətləndirilməsi kimi hallarla bağlı (“avoidance of undervalued transactions”) prosedurların qanunvericilikdə öz əksini tapması | | | | 1 bal artım |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | 3. Müflisləşmə elan edildikdən sonra fəaliyyət qabiliyyətli (“viable”) debitor şirkətin kredit ala bilmək hüququnun qanunvericilikdə təsbit edilməsi | | | | 1 bal artım |
| | | | | 4. Müflisləşmə elan edildikdən sonra debitor şirkətin yenidən qurulması (“reorganization”) planına etiraz edən kreditorların əldə edəcəkləri kompensasiyanın müəssisənin ləğv edilməsi (“liquidation”) halında əldə edə biləcəkləri kompensasiya həddində olması qaydasının müəyyən edilməsi | | | | 1 bal artım |
| | | | | 5. Müflisləşmə elan edildikdən sonra debitor şirkətin yenidən qurulması (“reorganization”) planı ilə əlaqədar səsvermə üçün kreditorların diferensial qruplara bölünməsi və hər qrupun ayrı-ayrılıqda səs verməsinin təsbit olunması | | | | 1 bal artım |
| | | | | 6. Müflisləşmə elan edildikdən sonra debitor şirkətin böyük həcmdə aktivlərinin satışı zamanı kreditorlardan razılıq alınmasının qanunvericilikdə təsbit edilməsi | | | | 1 bal artım |
| | | | | 7. Kreditorun (kreditorların) əmlak inzibatçısından sorğu əsasında informasiya almaq hüququnun qanunvericilikdə təsbit edilməsi | | | | 1 bal artım |
| | | | | 8. Kreditorun öz tələblərinin və digər kreditorların tələblərinin qəbul və ya rədd edilməsi ilə bağlı məsələləri mübahisələndirmək hüququnun qanunvericilikdə təsbit edilməsi | | | | 1 bal artım |
| **5.1.2.** | **Müqavilələrin həyata keçirilməsi** | **44-cü yer, 65.7 bal** | | | | | | |
| 5.1.2.1. | Məhkəmə proseslərinin | 5.5 bal | Qanunvericiliyə əsasən | 1. Məhkəmə prosesinə ara və ya möhlət verilməsi üzrə maksimum | | 2017-2018 | Nazirlər Kabineti, | Müvafiq alt reytinqlərdə |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | keyfiyyəti | | hesablanır (0-18 ballıq indeks ilə). | sayın qanunvericilikdə təsbit edilməsi<br>2. İddiaların elektron surətdə (“electronic case management tools”) vəkillər və hakimlər tərəfindən əldə olunmasının təmin edilməsi<br>3. Məhkəmə xərclərinin elektron olaraq ödənilməsinin təmin edilməsi<br>4. Məhkəmə sistemi üzrə könüllü barışdırma (“voluntary mediation /conciliation”) və arbitraj prosedurlarının təkmilləşdirilməsi | | | Ədliyyə Nazirliyi | irəliləmə |
| **6. Korporativ idarəetmə, investisiyalar, investorların maraqlarının qorunması, biznes etikası və korporativ sosial məsuliyyət** | | | | | | | | |
| ***6.1. Doing Business Hesabatı üzrə*** | | | | | | | | |
| **6.1.1.** | **Kiçik investorların maraqlarının qorunması** | **32-ci yer, 65 bal** | | | | | | |
| 6.1.1.1. | Direktorların məsuliyyəti indeksi | 5 | Qanunvericiliyə istinadən hesablanır (0-10 ballıq indeks ilə). | Qəsdən aldatma və dələduzluq hallarına əlavə olaraq, məhkəmə tərəfindən bağlanmış əqdin, əməliyyatın ədalətsiz olduğu və ya maraqların toqquşmasına gətirib çıxardığı vəziyyətlər daxil olmaqla, ləğv edilməsinin mümkünlüyünün təmin edilməsi | İnzibati Xətalar Məcəlləsində dəyişiklik;<br>Cinayət Məcəlləsində dəyişiklik;<br>Mülki Məcəllədə dəyişiklik. | 2017 | İqtisadiyyat Nazirliyi,<br>Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi,<br>Maliyyə Bazarlarına Nəzarət Palatası | Qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi |
| 6.1.1.2. | Səhmdarlar üçün məhkəmə proseslərinin asanlığı | 8 | Qanunvericiliyə istinadən hesablanır<br>(0-10 ballıq indeks ilə). | İddiaçı tərəfin cavabdehdən işə dair bütün sənədlərin (konkret sənəd göstərilmədən) təqdim edilməsini tələb edə bilməsi qaydalarının müəyyən edilməsi | Mülki Prosessual Məcəllədə dəyişiklik | 2017 | Maliyyə Bazarlarına Nəzarət Palatası, İqtisadiyyat Nazirliyi,<br>Ədliyyə Nazirliyi,<br>Vergilər Nazirliyi | Qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi |
| 6.1.1.3. | Səhmdarların hüquqları | 7 | Qanunvericiliyə istinadən | Cəmiyyət tərəfindən səhmlərin əlavə buraxılışı zamanı səhmdarların | Mülki Məcəllə | 2017 | Maliyyə Bazarlarına | Qanunvericilikdə müvafiq |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | indeksi | | hesablanır (0-10 ballıq indeks ilə). | avtomatik olaraq onları əldə etmək hüququnun təmin edilməsi | | | Nəzarət Palatası, İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi | dəyişikliklərin edilməsi |
| 6.1.1.4. | Mülkiyyət və nəzarət indeksi | 3 | Qanunvericiliyə istinadən hesablanır (0-10 ballıq indeks ilə). | 1. Müşahidə (Direktorlar) Şurası tərəfindən ayrıca audit komitəsinin yaradılmasının təmin edilməsi<br>2. Dividendlərin verilməsi barədə qərar qəbul edildikdən sonra qanunvericilikdə müəyyənləşdirilmiş müddət ərzində səhmdar cəmiyyət tərəfindən dividendlərin ödənilməsinin təmin edilməsi<br>3. Törəmə cəmiyyətin əsas cəmiyyətin səhmlərini (paylarını) almaq hüququnun qadağan edilməsi<br>4. Səhmdar cəmiyyətlərdə səhmlərin 50 faizinin satın alınması zamanı mövcud səhmdarlara tender təklifinin verilməsinin təmin edilməsi<br>5. Məhdud məsuliyyətli cəmiyyətdə Müşahidə (Direktorlar) Şurasının üzvünün səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsinin təmin edilməsi | Mülki Məcəllə | 2017 | Maliyyə Bazarlarına Nəzarət Palatası, İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi | Qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi |
